**ƏDALƏT MÜHAKİMƏSİNİN SƏMƏRƏLİLİYİ ÜZRƏ AVROPA KOMİSSİYASI (CEPEJ)**

# Məhkəmələrin və ədalət mühakiməsinin keyfiyyətini yüksəltmək üçün yoxlama vərəqəsi

**CEPEJ tərəfindən 11-ci plenar iclasında (Strasburq 2-3 iyul, 2008-ci il) qəbul edilib**

Bu Sxem dövlət sistemi, məhkəmə və fərdi hakim səviyyələrində məhkəmə sistemlərinin keyfiyyətinin yüksəldilməsinə yönləndirilmiş qanunvericilik, siyasət və praktikaların təkmilləşdirilməsi məqsədilə ədalət mühakiməsinin idarəçiliyi üzrə məsuliyyət daşıyan qərarverici dairələr və məhkəmə fəaliyyəti ilə məşgul olanlar üçün nəzərdə tutulmuşdur.

Bu maraqlı tərəflərin daxili istifadəsi üçün nəzərdə tutulan alət,“özünü təhlil anketi”-dir.

## ÖN SÖZ

Ədalət mühakiməsinin keyfiyyətləri və qüsurları haqqında danışmaq nisbətən asandır. Həm ictimaiyyət, həm də peşəkarlar mövzu barədə şəxsi təcrübələrinə və ya məhkəmə sistemindəki çatışmazlıqlara göstərilən münasibətlərə əsaslanan baxışlara malikdirlər. Dəfələrlə qeyd edilən qüsurlara lənglik, xərclər, uzaqlıq və mürəkkəblik daxildir. Bəzən sistemin müstəqil və səmərəli olduğu qəbul edilir. Buna baxmayaraq, ədalət mühakiməsinin keyfiyyəti anlayışının müəyyən edilməsi daha mürəkkəbdir və bu istiqamətdə az səy göstərilmişdir. Bəlkə də bu ona görədir ki, ədalət mühakiməsinin keyfiyyəti anlayışı hər biri eyni vasitələrlə ölçülə bilməyən müxtəlif sahələrdən geniş çeşiddə bir sıra amilləri özündə birləşdirir.

Nə ədalət mühakiməsinin keyfiyyəti nəzəriyyəsini, nə də ədalət mühakiməsinin keyfiyyətinin tərifini vermək CEPEJ-in səlahiyyətində deyil. Buna baxmayaraq, onun məqsədi ədliyyə sistemi çərçivəsində keyfiyyəti təşviq etmək, səciyyəvi xüsusiyyətlərini nəzərə alaraq öz sistemlərinin keyfiyyətini təkmilləşdirmək üçün qərarverici dairələri, eləcə də məhkəmə fəaliyyəti ilə məşğul olanları konkret vasitələrlə təmin etməkdir.

CEPEJ-in vəzifəsi sadəcə xidmətlərin göstərilməsi ilə məhdudlaşdırıla bilməyəcək ədalət mühakiməsinin spesifik xarakterini nəzərə almaqdır: spesifik və unikal ictimai xidmət kimi, ədliyyə sosial əlaqələr yaradır.

Buna görə də CEPEJ tərəflər, şahidlər, zərərçəkənlər, məhkəmə fəaliyyəti ilə məşğul olanlar və ya vətəndaşların - ədliyyə sistemlərinin müxtəlif auditoriyalarının keyfiyyətlə əlaqədar həmişə eyni gözləntiləri olmadığını nəzərə alaraq, ədalət mühakiməsinin keyfiyyətinə praktiki töhfə verən geniş diapazonlu qanunvericilik amillərini vurğulamağı seçib.

Bu Yoxlama Vərəqəsi ədalət mühakiməsinin keyfiyyəti üzrə CEPEJ İşçi Qrupu tərəfindən hazırlanıb (CEPEJ-GT-QUAL)[1] və 2-3 iyul 2008-ci il tarixində CEPEJ-in 11-ci plenar iclasında qəbul edilib.

Bu sənəd qərarverici dairələri, məhkəmə inzibatçıları, məhkəmə iclaslarının sədrləri, hakimlər və digər məhkəmə vəkillərinin öz səviyyələrində məhkəmə sistemi tərəfindən təklif edilən xidmətlərin keyfiyyətinin təkmilləşdirilməsi ilə əlaqədar məsuliyyətləri ilə üzləşmələrinə imkan yaradan “özünü təhlil vasitəsi” hesab edilə bilər.

Bu vasitənin əsas məqsədi müvafiq məlumatı toplamaqda hüquqi sistemlərə yardım etmək və keyfiyyətlə əlaqədar müvafiq aspektləri təhlil etməkdir.

Bu sənədi digər ümumi keyfiyyət modelləri (məsələn, “Keyfiyyətin İdarə edilməsi üzrə Avropa Fondu” modeli) və ya dövlət səviyyəsində hazırlanmış modellər (məsələn, Rovaniemi Apellyasiyası Fin Məhkəməsinin “Keyfiyyət modeli” və ya Niderlandda

[1] Daimar LIIV (Estoniya), Fransua PAYCHÈRE (İsveçrə), Andre POTOSKI (Fransa), Yohannes RİDEL (Almaniya), Con STAYSİ (Birləşmiş Krallıq), Kari TURTİAYNEN (Finlandiya), Elske Van AMELSFORT (Niderland), Mixail VİNOQRADOV (Rusiya Federasiyası) ibarət; elmi ekspert kimi Julien LHUILLIER (Fransa) və müşahidəçi qismində Jan-Jak KUSTER (Məhkəmə Katibləri və Arxiv Qeydiyyatçılarının Avropa İttifaqı) və Klaus DEKER-in (Dünya Bankı) iştirakı ilə.

“RechtspraaQ modeli”) ilə müqayisədə “unikal” edən ədliyyə mühakiməsinin keyfiyyətini üç səviyyədə ələ almasıdır: dövlət, məhkəmə və fərdi hakimlər səviyyəsində. Bu üç səviyyənin hər biri üçün suallar siyahısı hazırlana bilər. Bunlar müfəssəl deyil və daha da genişləndirilə bilər. Bu sənədin ümumi ideyası bütövlükdə məhkəmələrin və ya ədliyyə sisteminin keyfiyyətini təkmilləşdirmək axtarışında olan qərarverici dairələrə və məhkəmə vəkillərinə kömək etməkdir.

Oxucuya bu fakt xatırladılmalıdır ki, bu sənəddə təqdim olunan modellər mövcud olan yeganə və ya ən yaxşı keyfiyyət modelləri deyil. Alternativ modellər də mövcuddur. Modellərin əsas məqsədi ədalət mühakiməsinin keyfiyyəti haqqında müzakirəyə başlayarkən və ya məhkəmələrdə keyfiyyət səviyyəsini müəyyən edərkən mühüm elementlərdən oxucunu xəbərdar etməkdir.

***

## GİRİŞ

### Ədliyyə sisteminin və məhkəmələrin keyfiyyəti

Bu yoxlama vərəqəsində təqdim olunan keyfiyyət modeli təxminən qiymətləndirmənin beş sahəsində hazırlanıb. Dörd sahə təklif (məhkəmə infrastrukturu, ədliyyə nazirliyi, məhkəmə şurası), biri isə tələb (məhkəmələrin istifadəçisi) ilə əlaqədardır.

### Təklif

"Strategiya və siyasət" mövzusu modelin mərkəzində yerləşdirilib. O, dövlət səviyyəsində, missiyaların hazırlanması ilə əlaqədar regional və ya məhkəmə səviyyəsində həyata keçirilən bütün tədbirlər, orta müddətli və uzun müddətli proqramlar, bütövlükdə məhkəmə sistemlərinin və ya ayrı-ayrı məhkəmələrin gələcək inkişafının ümumi istiqaməti və ya məsələn, digər ədliyyə subyektləri (dövlət prokurorluq orqanları və fərdi hüquq mütəxəssisləri kimi) ilə əməkdaşlığı möhkəmləndirmək məqsədi daşıyan siyasət seçimləri ilə əlaqədardır. Bura həmçinin müstəqil mövqenin mühafizəsi və məhkəmələrin səlahiyyətləri ilə bağlı qanunvericiliyin hazırlanması və ya dəyişdirilməsi daxildir.

Ədliyyənin müvafiq fəaliyyəti hakimlərin, ittihamçıların və işçi heyətinin keyfiyyətindən son dərəcə asılı olduğundan insan resursları və ədliyyənin statusu keyfiyyət modelinin ikinci mühüm sahəsini formalaşdırır. Qərarverici dairələr və məhkəmə inzibatçıları insan resursları siyasətlərinin (işəgötürmə, hakimlərin, ittihamçıların və işçi heyətin təlimi, təhsili və karyerası) inkişafına lazımi qədər diqqət yetirməlidirlər. Məhkəmələr məlumatın üstün rol oynadığı təşkilatlar olduğu üçün, hakimlər, ittihamçılar və eləcə də işçi heyət arasında biliyin paylaşılmasını təşviq edən siyasətlərin hazırlanması zəruridir.

İnsan resursları məhkəmə sistemləri üçün mühüm faktordur. Buna baxmayaraq, bu keyfiyyəti müəyyən edən yeganə amil deyil. Məhkəmələrin müvafiq fəaliyyəti üçün kifayət qədər maliyyə resurslarının, eləcə də hakimlər, ittihamçılar və işçi heyəti üçün məhkəmə işlərini həll etməyi və məqsədəuyğun, effektiv və səmərəli qərarlar verməyi mümkün edən uyğun vasitələrin olması zəruridir. Bu səbəbə görə bir çox Avropa ölkələrində məhkəmələrdə məlumat və kommunikasiya texnologiyalarından istifadə stimullaşdırılıb (məhkəmə idarəetməsi informasiya sistemləri, elektron sənədlər, elektron məlumat mübadiləsi, video konfrans və s.). Bundan əlavə, malların satın alınması, məhkəmə binalarının və məlumatın təhlükəsizliyi, məsələn bazalarda və ya binalarda xüsusilə təhlükəsizliyi təmin olunan yerlərdə saxlanan məhkəmə sənədləri ilə əlaqədar məsələlərə diqqət yetirilməlidir. Keyfiyyət modelində bütün bu mövzular "ədalət mühakiməsinin vasitələri" xanasında ümumiləşdirilib.

Keyfiyyət modelinin dördüncü sahəsi iş və fəaliyyət proseslərindən bəhs edir. Bunlar işlərin hazırlanmasından hakim tərəfindən verilən qərara və onun icrasına qədər bütün fəaliyyətlərdir. Dövlət, regional və ya yerli (məhkəmə) səviyyədə tədbirlər həyata keçirməklə, məsələn, məhkəmələr və/və ya hakimlər arasında işlərin bölüşdürülməsi üçün obyektiv siyasət təqdim etməklə, məhkəmə dinləmələrinin səmərəliliyini təkmilləşdirmək və hüquqi müəyyənlik prinsipini gücləndirmək üçün məhkəmə işləri siyasəti və ya siyasətlərinin səmərəli idarə edilməsi ilə və ya məhkəmənin qərar vermə proseslərində vətəndaşların cəlb edilməsi ilə keyfiyyətə təsir etmək mümkündür.

**Tələb**

Keyfiyyətin İdarə olunması üzrə Avropa Fondu, Balanslaşdırılmış Qiymət Kartı, Altı Siqma və s. kimi bütün ümumi keyfiyyət modellərində müştəri-yönümlü perspektivin mühümlüyü vurğulanıb. Əlbəttə, bəzi hissələrdə dövlət qurumları və özəl şirkətlər arasında fərq var. Dövlət xidməti deyildikdə, CEPEJ müştərilərdən daha çox məhkəmə istifadəçilərini nəzərdə tutacaq. Keyfiyyətin yüksək səviyyəsi məmnun "istifadəçilər" və müştərilərin ehtiyaclarının və istəklərinin lazımi qədər nəzərə alındığı idarəçilik perspektivi ilə əlaqədardır və bu da faktdır ki, məhkəmələrin işinin müəyyən hissəsi bütün qanuni hüquqları və fərdi azadlıqlarına riayət edilməli olan "qeyri-könüllü istifadəçilərə" (cinayət sahəsində) ünvanlanır.

Ədalət mühakiməsinə çatımlılığın lazımi səviyyədə olması bütövlükdə ədliyyə sisteminin keyfiyyətini mühafizə etmək və ya təkmilləşdirmək üçün mühümdür. Hüquqi yardım sxemini təqdim etmək, mübahisələrin müntəzəm həlli üçün məhkəmə işinin tərəflərinə alternativ tədbirlər təklif etmək, məhkəmələrin necə fəaliyyət göstərdiyi ilə bağlı vətəndaşlara və məhkəmə istifadəçilərinə praktiki məlumatın verilməsi və ya həssas insanlara xüsusi diqqət yetirmək və s. üçün dövlət (regional) səviyyəsində tədbirlər həyata keçirilə bilər. Buna baxmayaraq, ədalət mühakiməsinə çatımlılığın lazımi səviyyədə olması kifayət deyil. Məhkəmə sisteminə ictimai inam və onun legitimliyinin də səviyyəsi qənaətbəxş olmalıdır. Təqdim olunan modelə ictimai inamın və legitimliyin daxil edilməsinin səbəblərindən biri də budur. Ümumilikdə, məhkəmə sisteminin yüksək keyfiyyət dərəcəsini məhkəmə sisteminə ictimai inamın yüksək səviyyədə olması əks etdirir.

**Yoxlama Vərəqəsindən necə istifadə etmək lazımdır?**

Yoxlama vərəqəsi ədliyyə və məhkəmələrdə keyfiyyəti yüksəldilməsi və təkmilləşdirilməsinə görə məsul dairələr (dövlət, regional və ya lokal səviyyədə), məhkəmə inzibatçıları, hakimlər və ya digər spesifik işçi heyəti üçün nəzərdə tutulmuşdur. Bu, Ədliyyə Nazirlikləri, ali ədliyyə şuraları, ali məhkəmələr, apellyasiya məhkəmələri, birinci instansiya məhkəmələri, ixtisaslaşdırılmış tribunallar və s. üçün yoxlama vərəqəsidir.

Yoxlama vərəqəsi yuxarıda təsvir olunan beş sahə ətrafında qurulmuşdur. Hər bir sahə üzrə alt-mövzular müəyyən edilir və suallar siyahısı verilir. Suallar elə hazırlanıb ki, keyfiyyət siyasətlərinin mövcudluğu və ya qeyri - mövcudluğunu, məhkəmələrin və ədliyyənin keyfiyyəti ilə əlaqədar keyfiyyət tədbirləri və ya diqqət mərkəzində olan digər məqamları cəld və asanlıqla müəyyən edir.

Bu yoxlama vərəqəsinin istifadəçiləri, müəyyən mövzu və ya diqqət mərkəzində olan məqamların artıq təşkilat tərəfindən əhatə edilib - edilmədiyini - müvafiq xanaları işarələyərək - qeyd edə bilərlər. Əhatə edilmədiyi təqdirdə, bu təşkilatlara yeni siyasətlər hazırlamağa, cari siyasətləri dəyişməyə və məhkəmələrin, hakimlərin, ittihamçıların və işçi heyətinin işi ilə əlaqədar müəyyən keyfiyyət məsələlərinə diqqət yetirməyə kömək edə bilər.

Hər bir sualdan sonra aşağıdakı sütunlar verilir: dövlət (S), məhkəmə (C) və hakim (J). Ədliyyə və məhkəmələr üçün həmçinin regional səviyyədə məsuliyyətin mövcud olduğu müəyyən ölkələr üçün bu yaddaş siyahısının tətbiq edilə bilməsini təmin etmək məqsədi ilə inzibati region üçün (R) sütunu da həmçinin əlavə edilib (məsələn İsveç Kantonları və ya Alman Torpaqları üçün). Yoxlama vərəqəsindəki bütün suallar konkret vəziyyətiniz üçün tətbiq edilən olmaya bilər. Bu halda 'Tətbiq edilmir ' xanası işarələnməlidir.

Nümunə:

| Ədalət mühakiməsinin fəaliyyətinin əsas sütunları | S | R | C | J | T/E |
|---|---|---|---|---|---|
| **I. STRATEGİYA VƏ SİYASƏT** | | | | | |
| **I.1. Ədliyyənin təşkili və siyasət** | | | | | |
| 1. Ədliyyə ilə əlaqədar ümumi siyasətlər və strateji sənədlərin hazırlanmasına görə məsul dövlət orqanı (Ədliyyə Nazirliyi və ya Ali Ədliyyə Şurası) mövcuddurmu? | X | | | | |
| 2. Məhkəmə və ya məhkəmə qurumunu dəstəkləyən qanunvericilik mövcuddurmu? | | X | | | |
| 3. İcra və qanunvericilik hakimiyyətləri qarşısında məhkəmələrin müstəqilliyini qorumaq üçün konstitusional səviyyədə (və ya normaların iyerarxiyasının ən yüksək səviyyəsində) zəmanət mövcuddurmu? | X | | | | |

**Qiymətləndirmə**

Yoxlama vərəqəsinin quruluşunda qiymətləndirmə üçün ayrılmış yer var. Bunun səbəbi isə siyasətlərin, fəaliyyətlərin və iş səmərəliliyinin qiymətləndirilməsinin keyfiyyət siyasətinin ayrılmaz hissəsi olmasıdır. Qiymətləndirmələrdən əldə edilmiş məlumat ədliyyə və məhkəmələr üzrə daha çox keyfiyyətə yönləndirilmiş təkmilləşdirmələr və dəyişikliklər üçün mənbə kimi istifadə edilə bilər.

| I.<br><br>STRATEGİYA VƏ SİYASƏT | | II.<br><br>"İŞ"VƏ FƏALİYYƏTLƏR STATUSU | | III.<br><br>MƏHKƏMƏYƏ ÇATIMLILIQ, MƏHKƏMƏ İSTİFADƏÇİLƏRİ VƏ İCTİMAİYYƏTLƏ ƏLAQƏ | | IV.<br><br>İNSAN RESURSLARİ VƏ MAGİSTRATLARIN STATUSU | | V.<br><br>ƏDALƏT MÜHAKİMƏSİNİN VASİTƏLƏRİ | |
|---|---|---|---|---|---|---|---|---|---|
| *I.1. Ədliyyənin təşkili və siyasət* | 2.3 | *II.1. Qanunvericilik* | 2.4 | *III.1. Hüquqi və məhkəmə məlumatından istifadə imkanı* | 3.1.1<br>2.1 | *IV.1. İnsan Resursları Siyasəti* | 2.5 | *V.1.Maliyyə* | 2.3<br>3.1.4 |
| *I.2. Missiya, strategiya, məqsədlər* | 3.1.3 | *II.2. Məhkəmə prosesləri* | 2.3 | *III.2. Maliyyədən istifadə imkanı* | 2.1<br>3.1.1 | *IV.2 Ədliyyənin statusu və səlahiyyətləri* | 2.5 | *V.2. İnformasiya sistemləri* | 2.3<br>3.1.4 |
| *I.3. Hakimlərdən hakim olmayan işçi heyətinə qədər məhkəmə işlərinin bölüşdürülməsi və vəzifələrin təyin edilməsi* | 3.1.3 | *II.3. Hüquqi müəyyənlik prinsipi* | 3.1.5 | *III.3. Birbaşa və virtual istifadə imkanı* | 2.1<br>3.1.1 | *IV.3. Təlim və səriştəliliyin yüksəldilməsi* | 3.1.4<br>3.2.2 | *V.3. Maddi-texniki təminat və təhlükəsizlik* | 2.3<br>3.1.4 |
| *I.4. Strategiyanın qiymətləndirilməsi* | 2.6 | *II.4. Məhkəmə işlərinin idarə olunması* | 3.2.2 | *III.4. Tərəflərlə davranışı* | 3.2.1 | *IV.4. Biliyin paylaşılması, keyfiyyət və Mübahisələrin Alternativ Həlli Üsulları* | 3.1.4<br>3.2.3 | *V.4. Vasitələrin, məlumatın sistemlərin, maddi-texniki təminatın və təhlükəsizliyin qiymətləndirilməsi* | |
| | | *II.5. Dinləmələrin idarə olunması* | 3.1.5 | *III.5. Qərarların təqdimatı* | 3.2.4 | *IV.5. İnsan Resursları siyasətinin qiymətləndirilməsi* | 3.1.6<br>3.2.5 | | |
| | | *II.6. Ləngimələrin idarə olunması* | 3.1.5 | *III.6. Qanunilik və ictimai inam* | 2.2<br>3.1.2 | | | | |

| I.<br>STRATEGİYA VƏ SİYASƏT | II.<br>"İŞ" VƏ FƏALİYYƏTLƏR STATUSU | | III.<br>MƏHKƏMƏYƏ ÇATIMLILIQ, MƏHKƏMƏ İSTİFADƏÇİLƏRİ VƏ İCTİMAİYYƏTLƏ ƏLAQƏ | | IV.<br>İNSAN RESURSLARİ VƏ MAGİSTRATLARIN STATUSU | V.<br>ƏDALƏT MÜHAKİMƏSİNİN VASİTƏLƏRİ |
|---|---|---|---|---|---|---|
| *I.1. Ədliyyənin təşkili və siyasət* | *II.7. Məhkəmə qərarlarının icrası* | 3.1.5 | *III.7.Qiymətləndirmə* | 3.1.6<br>3.1.2 | | |
| *I.2. Missiya, strategiya, məqsədlər* | *II.8. Ədalət mühakiməsinin tərəfdaşları* | 3.1.5 | | | | |
| *I.3. Hakimlərdən hakim olmayan işçi heyətinə qədər məhkəmə işlərinin bölüşdürülməsi və vəzifələrin təyin edilməsi* | *II.9. Sənədlərin və arxivləşdirmənin idarə olunması* | 3.1.5 | | | | |
| *I.4. Strategiyanın qiymətləndirilməsi* | *II.10. İşin qiymətləndirilməsi* | 3.1.6<br>3.2.5<br>3.1.2 | | | | |

(S: Dövlət; R: Region; C: Məhkəmə; J: Hakim, T/E: tətbiq edilmir)

| Ədalət mühakiməsinin fəaliyyətinin əsas sütunları | S | R | C | J | T/E |
|---|---|---|---|---|---|
| **I. STRATEGİYA VƏ SİYASƏT** | | | | | |
| **I.1. Ədliyyənin təşkili və siyasət** | | | | | |
| 1. Məhkəmələrlə əlaqədar ümumi siyasətlər və strateji sənədlərin hazırlanmasına görə məsul dövlət orqanı (Ədliyyə Nazirliyi və ya Ali Ədliyyə Şurası) mövcuddurmu? | | | | | |
| 2. Məhkəmə və ya məhkəmə qurumunu dəstəkləyən qanunvericilik mövcuddurmu? | | | | | |
| 3. İcra və qanunvericilik hakimiyyətləri qarşısında məhkəmələrin müstəqilliyini qorumaq üçün konstitusional səviyyədə (və ya normaların iyerarxiyasının ən yüksək səviyyəsində) zəmanət mövcuddurmu? | | | | | |
| 4. Məhkəmələrin və / və ya hakimlərin müəyyən kateqoriyalarının ixtisaslaşması ilə əlaqədar siyasət mövcuddurmu? | | | | | |
| 5. Məhkəmələr üçün (iş səmərəliliyi) hədəflər müəyyən edilibmi? | | | | | |
| 6. Məhkəmə resursu ehtiyacları və planlaşdırılması ilə əlaqədar strategiya və siyasət varmı? | | | | | |
| 7. Məhkəmənin coğrafi yerləşməsi siyasəti daxil olmaqla məhkəmələrin quruluşu və səlahiyyətləri ilə bağlı siyasət varmı? | | | | | |
| **I.2. Missiya, strategiya, məqsədlər** | | | | | |
| 1. Məhkəmə rəhbərliyi missiya/baxış və strategiya (ədliyyənin qərəzsizlik, müstəqillik, hüquqi müəyyənlik prinsipi və istifadə imkanı kimi əsas xüsusiyyətləri bura daxil edilməlidir) müəyyən edibmi? | | | | | |
| 2. Məhkəmə rəhbərliyi maraqlı tərəflər, hakimlər, ittihamçılar və məhkəmənin işçi heyəti arasında missiya/baxış və strategiyanın geniş təbliğatını aparırmı? | | | | | |
| 3. Məhkəmə rəhbərliyi missiyanı/baxışı konkret və ölçülə bilən hədəflərə və prioritetlərə çevirirmi? Onun iş səmərəliliyi göstəriciləri varmı? | | | | | |
| 4. Məhkəmə rəhbərliyi bu hədəflərə nail olmaq üçün həyati əhəmiyyətli uğur amillərini müəyyən edirmi? | | | | | |
| 5. Məhkəmə rəhbərliyi məhkəmə siyasətini hazırlayarkən daxili və xarici maraqlı tərəflərin qanuni ehtiyacların gözləntilərini və istəklərini nəzərə alırmı? | | | | | |
| 6. Məhkəmə rəhbərliyi daxili və xarici maraqlı tərəflər ilə sistemli əlaqə saxlayırmı? | | | | | |
| 7. Məhkəmə rəhbərliyi bütöv təşkilat daxilində təkmilləşmələri stimullaşdırmağa və ruhlandırmağa yönəlmiş mədəniyyəti təmin edirmi? | | | | | |
| 8. Məhkəmə rəhbərliyi hansı məhkəmə siyasətləri üzrə prioritetlərin inkişaf etdirilməli olduğunu müəyyən edibmi? | | | | | |
| 9. Məhkəmə rəhbərliyi bu prioritetlərlə bağlı qərar qəbulu prosesinin necə baş verməli olduğunu təsvir edibmi? | | | | | |

| Ədalət mühakiməsinin fəaliyyətinin əsas sütunları | S | R | C | J | T/E |
|---|---|---|---|---|---|
| **I.3. Hakimlərdən hakim olmayan işçi heyətinə qədər məhkəmə işlərinin bölüşdürülməsi və vəzifələrin təyin edilməsi** | | | | | |
| 1. Hər bir hakimin iş yükünü davamlı olaraq yoxlamaq üçün sistem mövcuddurmu? | | | | | |
| 2. Məhkəmdə səmərəliliyi artırmaq üçün məhkəmənin işləri və ya tapşırıqları yenidən təyin etmək imkanı varmı? Məhkəmə hakimlər arasında bu cür təkrar təyinatlara imkan verən uyğunlaşma mühiti yarada bilirmi? | | | | | |
| 3. Məhkəmə rəhbərliyi hakimlərdən hakim olmayan işçi heyəti üzvlərinə qədər vəzifə təyinatı ilə əlaqədar siyasət hazırlayıbmı? | | | | | |
| 4. Məhkəmə rəhbərliyi hakimlər arasında işlərin bölüşdürülməsi üçün obyektiv üsul müəyyən edibmi? | | | | | |
| 5. İşlərin bölüşdürülməsi haqqında məlumatdan bütün məhkəmə qurumu istifadə edə bilirmi? | | | | | |
| 6. Məhkəmə rəhbərliyi məhkəmə katibliyi üçün əsas tapşırıqlar, rol və standartları müəyyən edibmi? | | | | | |
| **I.4. Strategiyanın qiymətləndirilməsi** | | | | | |
| 1. Strateji risklərin idarə edilməsinin qiymətləndirilməsi üçün sistem mövcuddurmu? | | | | | |
| 2. Məhkəmə qurumunun quruluşundakı dəyişikliklərlə əlaqədar siyasətlərin icrası müntəzəm olaraq qiymətləndirilirmi? | | | | | |
| 3. Qanunvericiliyə edilən dəyişikliklərin icrası müntəzəm olaraq qiymətləndirilirmi? | | | | | |
| 4. Qanunvericilikdəki dəyişikliklər və onların məhkəmələr və/və ya hakimlər/ittihamçılar üzərində təsiri qiymətləndirilirmi? | | | | | |
| 5. Ədliyyənin effektivliyi və səmərəliliyi və mübahisələrin alternativ həlli üsulları prosedurları sistematik olaraq qiymətləndirilirmi? | | | | | |
| **II. İŞ VƏ FƏALİYYƏT PROSESLƏRİ** | | | | | |
| **II.1.Qanunvericilik** | | | | | |
| 1. Yeni qanunvericiliyi hazırlayarkən və ya cari qanunvericilikdə dəyişikliklər üçün keyfiyyət standartları və qaydalar istifadə edilirmi? | | | | | |
| 2. Yeni qanunvericiliyin təqdim olunmasının və ya cari qanunvericilikdə dəyişikliklərin məhkəmənin iş yükünə təsiri qiymətləndirilirmi? Əgər belədirsə, bu məhkəmələrin (heyət) tutumunda dəyişikliklərə gətirib çıxarırmı? | | | | | |
| 3. Prezident tərəfindən Parlamentə təklif olunan qanunvericilik təklifləri nəzərdən keçirilir və müstəqil orqanlar və qanunvericilik prosesinin bir hissəsi kimi ədliyyə tərəfindən şərh edilirmi? | | | | | |
| 4. Prosessual qanunlar (mülki, cinayət, inzibati) müntəzəm olaraq nəzərdən keçirilir və məhkəmə prosedurlarının effektivliyi və səmərəliliyini artırmaq məqsədi ilə dəyişdirilirmi? | | | | | |

| Ədalət mühakiməsinin fəaliyyətinin əsas sütunları | S | R | C | J | T/E |
|---|---|---|---|---|---|
| 5. Mübahisələrin alternativ həlli üsullarının istifadəsi üçün spesifik qanunvericilik (formal və prosessual) varmı? | | | | | |
| **II.2. Məhkəmə prosedurları** | | | | | |
| 1. Hakimlər arasında iş yükünün ədalətli və səmərəli bölüşdürülməsini təmin etmək üçün tədbirlər (məsələn, məhkəmə prosesinin gedişatına, hər bir hakimə etibar edilən işlərin sayına, işin aparılma sürətinə nəzarət, kənar fəaliyyətlərin uçotu və s.) həyata keçirilirmi? | | | | | |
| 2. Hakimlərin vəzifələri və onlara etibar edilən işlər arasında adekvatlığı təmin etmək üçün tədbirlər (təlim müddətləri, ixtisaslaşma, məhkəmə işlərinin yenidən qruplaşdırılması, “test sənədləri”, və s.) həyata keçirilirmi? | | | | | |
| 3. Hakimlər arasında sənədlərin bölüşdürülməsində şəffaflığı təmin etmək üçün tədbirlər (məsələn, ilkin və ictimai hədəf meyarları) həyata keçirilirmi? | | | | | |
| 4. Bir hakim və ya hakimlər paneli tərəfindən məhkəmə işlərinin aparılması ilə əlaqədar müəyyən siyasət mövcuddurmu? | | | | | |
| **II.3 Hüquqi müəyyənlik prinsipi** | | | | | |
| 1. Hüquqi müəyyənlik prinsipinin təşviqi ilə bağlı siyasət mövcuddurmu? | | | | | |
| 2. Hüquqi müəyyənlik prinsipini təşviq etmək üçün istifadə edilən, məsələn, yurisprudensiya üçün daxili sistem və ya müvafiq yurisprudensiyanı müzakirə etmək üçün iclasların təşkili kimi spesifik alətlər varmı? | | | | | |
| **II.4. Məhkəmə işlərinin idarə edilməsi** | | | | | |
| 1. Hər bir hakim - real zamanda - şöbəsi daxilində həllini gözləyən məhkəmə işlərinin vəziyyəti haqda məlumat almağa imkanı verən spesifik vasitələrə sahibdirmi? | | | | | |
| 2. O, bu məlumatı inzibati işçi heyəti ilə paylaşa bilirmi? | | | | | |
| 3. Bu məlumat məhkəmə daxilində paylaşılırmı? | | | | | |
| 4. Həlli gecikən prosedur ərzində hakimlər münaqişələri həll etmək üçün alternativ, lakin qeyri-icbari tədbirlər görə bilərlərmi? | | | | | |
| 5. Məhkəmə prosedurları (prinsipcə) ictimaiyyətə açıqdırmı? | | | | | |
| 6. Münaqişəni həll etmək üçün prosedurlar məqsədəuyğun şəkildə təşkil olunurmu? | | | | | |
| 7. Prosedurlar tərəflər və prosedurlara cəlb olunan digər şəxslər üçün xərclərin minimallaşdırılacağı şəkildə təşkil olunur və həyata keçirilirmi? | | | | | |
| 8. Tərəflərdə və vəkillərdə hakimlərin məhkəmə işlərini müvafiq şəkildə hazırladığı, işləri həll etmək üçün lazımi qədər təcrübəli olduğu və vəzifələrini tam başa düşdüyü ilə bağlı inamının olması üçün tədbirlər həyata keçirilirmi? | | | | | |
| 9. Hakimlərin/ittihamçıların müəyyən münaqişələri mediatorlara həvalə etmək səlahiyyəti varmı? | | | | | |
| 10. Mediatorluğun işini lazımsız yerə uzatmamasını təmin etmək üçün müəyyən edilmiş rejim mövcuddurmu? | | | | | |

| Ədalət mühakiməsinin fəaliyyətinin əsas sütunları | S | R | C | J | T/E |
|---|---|---|---|---|---|
| **II.5. Dinləmələrin idarə edilməsi** | | | | | |
| 1. Dinləmələrin hazırlanması üçün siyasət mövcuddurmu? | | | | | |
| 2. Tərəflərin vəkilləri ilə əməkdaşlıq çərçivəsində prosedurların müddəti və əsas məhkəmə dinləməsinə hazırlaşmaq üçün lazım olan vaxtı müəyyən etmək məqsədi ilə dinləmə məhkəmə işi qəbul edildikdən sonra bir neçə gün ərzində planlaşdırılırmı? | | | | | |
| 3. Dinləmələrin vaxtında başlayıb-başlamadığının ölçülməsi üçün sistem mövcuddurmu? | | | | | |
| 4. Dinləmə təxirə salınanda və ya gecikəndə tərəflər məlumatlandırılırmı? | | | | | |
| 5. Məhkəmə sessiyalarının səmərəli qrafikinin müəyyən edilməsi üçün istifadə edilən məlumat sistemi mövcuddurmu? | | | | | |
| 6. Hakimlərə gəldikdə :<br>o şifahi istintaqı nəzərə alaraq məhkəmə sənədlərini müvafiq şəkildə hazırlayırlarmı?<br>o prosedurun müxtəlif iştirakçılarının rollarını qavramalarını təkmilləşdimək qabiliyyətləri varmı?<br>o tərəflərin və şahidlərin danışıq vaxtının bölüşdürülməsinə nəzarət edirlərmi?<br>o məhkəmə polisinə müvafiq qaydada nəzarət edirlərmi?<br>o prosedurun şifahi mərhələsi çərçivəsində tərəflərin və şahidlərin gözləntilərini nəzərə alırlarmı?<br>o prosedurun vaxt cədvəlinə nəzarət edirlərmi?<br>o punktualdırlarmı? | | | | | |
| 7. Lazımsız gözləmə vaxtına (planlaşdırılmış görüşlər, zaman aralığı və s.) yol verməmək üçün mümkün olan ən tez müddətdə dinləmələr üçün çağırışlar göndərilirmi? | | | | | |
| 8. Qanuni səbəblər mövcud olduğu təqdirdə, tərəflərin işin prioritet hesab edilməsini tələb etmək imkanı varmı? | | | | | |
| **II.6. Vaxt çərçivələrinin idarə edilməsi** | | | | | |
| 1. Proqnozlaşdırıla bilən və optimal zaman çərçivələrinin müəyyən edilməsi üçün siyasət mövcuddurmu? | | | | | |
| 2. Məhkəmə prosedurlarının məqbul davametmə müddəti ilə bağlı standartlar və ya normalar müəyyən edilibmi? | | | | | |
| 3. Gecikmələrin qarşısını alınması ilə məhkəmə işləri axınının idarə edilməsi üçün siyasət mövcuddurmu? | | | | | |
| 4. Gecikmiş işləri sürətləndirmək və gözləmə siyahısını azaltmaq üçün tədbirlər görülürmü? | | | | | |
| 5. Prosedurların vaxtının dəqiqliyinin idarə edilməsində hakimin fəal rolu varmı? | | | | | |
| 6. Tərəflər məhkəmə ilə istifadə ediləcək vaxt çərçivələri haqqında danışıqlar apara bilərlərmi?[2] | | | | | |
| 7. Məhkəmə dinləməsindən sonra qərarın verilməsi üçün vaxt çərçivəsi müəyyən edilibmi? | | | | | |

[2] Daha təfərrüatlı suallar üçün, lütfən CEPEJ-in Vaxtın İdarə edilməsi üzrə Yaddaş Siyahısına istinad edin (CEPEJ (2005) 12 REV): www.coe.int/cepej.

| Ədalət mühakiməsinin fəaliyyətinin əsas sütunları | S | R | C | J | T/E |
|---|---|---|---|---|---|
| **II.7. Məhkəmə qərarlarının icrası** | | | | | |
| 1. Məhkəmə qərarlarının icrası ilə əlaqədar siyasət mövcuddurmu? | | | | | |
| 2. Məhkəmə qərarlarının bildiriş sistemi varmı? | | | | | |
| 3. Hakimin yekun qərarı ilə qərarın tərəflərə bildirilməsi arasında maksimum vaxt çərçivəsi müəyyən edilibmi? | | | | | |
| 4. Hakimin yekun qərarı ilə məhkəmə qərarının icrası arasındakı vaxt çərçivəsi müntəzəm olaraq yoxlanılırmı? | | | | | |
| 5. Əgər qərarların icrası spesifik peşənin (məhkəmə icraçısı və s.) üzvlərinə etibar edilibsə, onlara ədliyyə orqanları tərəfindən nəzarət edilirmi? | | | | | |
| **II.8. Ədalət mühakiməsinin tərəfdaşları** | | | | | |
| 1. Konsultasiya edilə biləcək məhkəmə ekspertləri, tərcüməçilərinin yenilənmiş siyahısı varmı? | | | | | |
| 2. Məhkəmə digər qurumlarla (polis, vəkillər, dövlət ittihamçıları, sosial işçilər, mühafizlər, ekspertlər, və s.) əməkdaşlıq edirmi? | | | | | |
| 3. Mühafizlərin yenilənmiş siyahısı varmı? | | | | | |
| 4. Ekspertlər və məhkəmə tərcüməçiləri üçün keyfiyyətə nəzarət sistemi varmı? | | | | | |
| 5. Ekspert hesabatını almaq üçün sabit son müraciət tarixləri müəyyən edilibmi? | | | | | |
| 6. Məhkəmə hesabatının nəticəsinə etiraz etmək mümkündürmü? | | | | | |
| 7. Ekspertlər və məhkəmə tərcüməçiləri sertifikatlaşdırılıbmı? | | | | | |
| **II.9. Sənədlərin və arxivləşdirmənin idarə olunması** | | | | | |
| 1. Məhkəmə sənədləri və işlərinin qeydə alınması və nəzarət edilməsi üçün məhkəmə işinin idarə olunması üzrə məlumat sistemi mövcuddurmu? | | | | | |
| 2. Məhkəmə sənədləri və məhkəmə qərarlarının arxivləşdirilməsi üçün xüsusi siyasət mövcuddurmu? | | | | | |
| 3. Məhkəmə işlərini və qərarlarını arxivləşdirmək üçün (elektron) məlumat sistemi mövcuddurmu? | | | | | |
| 4. Elektron sənədlərin məhkəmə sistemi mövcuddurmu? | | | | | |
| 5. Sənədləri elektron formada məhkəməyə təqdim etmək mümkündürmü? | | | | | |
| **II.10 İşin qiymətləndirilməsi**[3] | | | | | |
| 1. Məhkəmə inzibatçıları tərəfindən əməliyyat riskləri və məhkəmələrin daxili nəzarətinin qiymətləndirilməsi üçün sistem mövcuddurmu? | | | | | |
| 2. Əməliyyat risklərinin idarə edilməsi:<br>o ədliyyəyə (media ilə münasibət, hakimlər/ittihamçılar tərəfindən kommunikasiyanın idarə edilməsi və s.) ictimai inamın itirilməsi riskləri?<br>o prosedurların etibarlılığı ilə əlaqədar (xüsusilə məlumat sistemləri ilə əlaqədar) riskləri?<br>(məhkəmə) siyasətlərdə nəzərə alırmı? | | | | | |

[3] Tam olaraq ədliyyə işinin keyfiyyətinin bir hissəsi olmasına baxmayaraq, burada CEPEJ tərəfindən məhkəmə qərarlarının keyfiyyəti məsələsinə bilərəkdən müraciət edilməyib. Bu məsələyə daha sonrakı mərhələdə Avropa Hakimlərinin Məşvərət Şurası tərəfindən (CCJE) müraciət ediləcək.

| Ədalət mühakiməsinin fəaliyyətinin əsas sütunları | S | R | C | J | T/E |
|---|---|---|---|---|---|
| 3 Məhkəmə rəhbərliyi məhkəmənin iş səmərəliliyini dövri qaydada qiymətləndirirmi? | | | | | |
| 4 Qiymətləndirmə nəticələrinin nəşr olunması haqqında siyasət mövcuddurmu? | | | | | |
| 5 Keyfiyyət qaydaları və standartları dövri qaydada qiymətləndirilirmi? | | | | | |
| 6. Qiymətləndirmə nəticələrinin ardından vəziyyəti yaxşılaşdırmaq üçün tədbirlər müəyyən edilir və həyata keçirilirmi? Bu təkmilləşdirmə tədbirlərinə nəzarət edilirmi? | | | | | |
| 7 Hakimlər paneli tərəfindən baxılan məhkəmə işlərinin faizi qeyd edilir və nəşr olunurmu? | | | | | |
| 8 Uğurlu etirazların sayı qeyd edilir və nəşr olunurmu? | | | | | |
| 9. Appelyasiya şikayətlərinin faizi qeyd edilir və nəşr olunurmu? | | | | | |
| 10. Hakimlərin və məhkəmə heyətinin məhsuldarlığı qeyd edilir və nəşr olunurmu? | | | | | |
| 11. Ləğv olunan işlərin faizi qeyd edilirmi? | | | | | |
| 12 Prosedurların uzunluğu sistematik olaraq qeyd edilir və nəşr olunurmu? | | | | | |
| 13. Verilmiş müddətdə daxil olan, həllini gözləyən və həll olunan məhkəmə işlərinin ümumi sayını müəyyən etmək mümkündürmü? | | | | | |
| 14. Həlli gecikən məhkəmə işlərinin xarakteri sistematik olaraq təhlil edilirmi? | | | | | |
| 15. Məhkəmə işlərinin gözləmə siyahısını azaltmaq üçün hədəflər müəyyən edilibmi? | | | | | |
| 16. Hər bir hakimin fəaliyyəti ilə əlaqədar kəmiyyət və keyfiyyət qiymətləndirilməsi sistemi mövcuddurmu? | | | | | |
| 17. İstənilən vaxtda ayrı-ayrı həllini gözləyən məhkəmə işləri və hakimlər tərəfindən həll olunmuş məhkəmə işləri haqqında məlumatı təqdim etmək mümkündürmü? | | | | | |
| 18. Hər bir hakimə məhkəmə şöbəsi, həmkarlarının şöbəsi ilə əlaqədar məlumata, eləcə də bütövlükdə məhkəmə ilə əlaqədar məlumatlara cıxışı varmı? | | | | | |
| 19 Həmçinin ayrı-ayrı hakimlərin işinin keyfiyyət aspektləri də məhkəmə insan resursları siyasətinin bir hissəsidirmi? | | | | | |
| **III. MƏHKƏMƏYƏ ÇATIMLILIQ, MƏHKƏMƏ İSTİFADƏÇİLƏRİ VƏ İCTİMAİYYƏTLƏ ƏLAQƏ** | | | | | |
| **III.1. Hüquqi və məhkəmə məlumatından istifadə imkanı** | | | | | |
| 1. Qanunlar asanlıqla əldə edilə biləcək şəkildə nəşr olunurmu? | | | | | |
| 2. Hüquqi mətnlərə giriş təmin edən ödənişsiz İnternet saytları varmı? | | | | | |
| 3. Qəbul şöbəsinin heyəti (resepşn) məhkəmə ziyarətçiləri və istifadəçilərinə iş metodları, prosedur qaydaları və digər praktiki məlumatı izah etmək üçün təlim keçibmi? | | | | | |
| 4. Məhkəmə hökmləri və qərarlarını məhkəmələrin internet saytlarında tapmaq mümkündürmü? | | | | | |
| 5. Məhkəmə qərarlarının nəşr olunması ilə əlaqədar siyasət mövcuddurmu? | | | | | |
| 6. Milli azlıqların dilində danışan/oxuyan insanların öz dillərində hüquqi mətnlərin rəsmi versiyasını əldə etmək imkanı varmı? | | | | | |

| Ədalət mühakiməsinin fəaliyyətinin əsas sütunları | S | R | C | J | T/E |
|---|---|---|---|---|---|
| 7. Məhkəmə prosedurlarında istifadə edilən rəsmi dili başa düşməyən şəxslərə tərcüməçi (ödənişsiz) təyin edilirmi? | | | | | |
| 8. Məhkəmələrin tərcümə xidməti varmı və ya tərcüməçiləri dərhal çağırmaq mümkündürmü? | | | | | |
| 9. Məhkəmələrin fəaliyyəti haqqında məlumat mövcuddurmu və vətəndaşlar tərəfindən asanlıqla əldə edilə bilirmi? | | | | | |
| 10. Vətəndaşların hüquqları və öhdəlikləri ilə bağlı məlumat (qanunda göstərildiyi kimi) onlar tərəfindən asanlıqla əldə edilə bilirmi (məsələn, ümumi telefon nömrəsi vasitəsilə)? | | | | | |
| 11. Bu məlumat məzmun baxımından mövcud geniş diapazonlu vəziyyətlərə (təhlükədə olan uşaqlar, boşanmalar, cinayət prosedurları, nəzarət-saxlanma məkanları və s.) uyğunlaşdırılıbmı? | | | | | |
| 12. Məhkəmədə məhkəmə ziyarətçiləri üçün məlumat bürosu varmı? | | | | | |
| 13. Məhkəmənin qəbul şöbəsində və/və ya veb-saytında vəkillərin/barristerlərin yenilənmiş siyahısı varmı? | | | | | |
| 14. Məhkəmədə istifadəçilər üçün məlumat vərəqələri varmı? | | | | | |
| 15. İddiaçı prosedurların bütün mərhələlərində iştirak edə və ya təmsil oluna bilərmi? | | | | | |
| 16. İddiaçı hüquqşünas tərəfindən təmsil olunursa, bu təmsilçilik yalnız vəkillərin müstəsna hüququdurmu? | | | | | |
| 17. Hüquqşünasların müstəsna təmsilçilik monopoliyası yoxdursa, assosiasiyalar və həmkarlar ittifaqları iddiaçılara hüquqi məsləhət və yardım (məsələn, sosial məsələlər və ya istehlakçı hüquqlarında) təklif edə bilərlərmi? | | | | | |
| **III.2. Maliyyədən istifadə imkanı** | | | | | |
| 1. Lazımi maliyyə vasitələri olmayan iddiaçıların öz (mülki) hüquq və öhdəlikləri barədə məlumatlandırılmaq üçün ödənişsiz və ya güzəştli qiymətlə konsultasiyalar almaq hüquqları varmı? Əgər belədirsə, bu, qanunun bütün sahələrində keçərlidirmi? | | | | | |
| 2. Prosesin tərəfləri ödənişsiz və ya güzəştli qiymətlə hüquqi təmsilçilik (hökumətin hüquqi yardım büdcəsi ilə maliyyələşdirilən) ala bilərmi? Bu yalnız cinayət məsələlərinə, yoxsa digər bütün sahələrə tətbiq edilir? | | | | | |
| 3. Prosedurun icrası xərcləri şəffafdırmı? | | | | | |
| 4. Prosedur üçün xərclərə qənaətə zəmanət verən sistem mövcuddurmu? | | | | | |
| 5. Cinayət prosedurlarında məhkəmə xərcləri və ya məhkəmə rüsumlarının ödənişi ilə əlaqədar ümumi qaydalar mövcuddurmu? Digər işlərdə? | | | | | |
| 6. Vəkillər kollegiyasının üzvləri ödənişsiz konsultasiyalar keçirirlərmi? | | | | | |
| 7. İctimaiyyətin məhkəmə prosedurlarının xərclərindən xəbərdar olması məqsədi ilə:<br>o vəkillərdən/barristerlərdən tələb edəcəkləri xərcləri ictimailəşdirmək və müştəriləri ilə müqavilə bağlamaq tələb olunurmu?<br>o vəkillər/barristerlər tərəfindən həddindən artıq xərcin tələb olunmasına etiraz etmək üçün hüquqi prosedurlar varmı?<br>o ekspertlər tərəfindən həddindən artıq xərcin tələb olunmasına etiraz etmək üçün hüquqi prosedurlar varmı? | | | | | |

| Ədalət mühakiməsinin fəaliyyətinin əsas sütunları | S | R | C | J | T/E |
|---|---|---|---|---|---|
| 8. Vəkillər/barristerlər və ekspertlər tərəfindən tələb olunan xərclərə etiraz üçün (hüquqi) imkan mövcuddurmu? | | | | | |
| **III.3. Birbaşa və virtual istifadə imkanı** | | | | | |
| 1. Məhkəmələr gediş-gəliş baxımından əlverişli yerlərdə yerləşirmi? | | | | | |
| 2. Dinləmələrin məhkəmənin əsas binasından kənarda keçirilməsi üçün müddəa mövcuddurmu? | | | | | |
| 3. Qəbul şöbəsinin heyəti çağırış göndərilmiş şəxslərin stressini nəzərə almaq üçün müvafiq təlim keçibmi? | | | | | |
| 4. Məhkəmədə qonaqların qəbulunu təkmilləşdirmək üçün xüsusi nizamnamə hazırlanıbmı? | | | | | |
| 5. Əlil və ya yaşlı insanlar üçün aşağıdakılardan istifadə imkanı yaradılıbmı:<br>o əvvəlcədən qeydiyyatdan<br>o keçirilmiş parkinq yerləri?<br>o binaların əlil arabaları üçün maili keçidləri varmı? | | | | | |
| 6. Əgər ehtiyac olarsa, hər hansı şəxsin məhkəmə otaqlarına onları müşayiət etmək imkanı varmı? | | | | | |
| 7. Gözləmə və dinləmə otaqları müvafiq avadanlıqlarla təchiz edilibmi və standartlara uyğundurmu? | | | | | |
| 8. Məhkəmə binasında vəkillərin öz müştəriləri ilə görüşə biləcəkləri otaqlar varmı? | | | | | |
| 9. Gözləmə otaqları bir-birinə qarşı tərəflərin eyni otaqda gözləmək məcburiyyətində qalmayacağı şəkildə təşkil olunubmu? | | | | | |
| 10. Məhkəmə binalarına daxil olan qonaqlar üçün aydın yolgöstərici nişanlar varmı? | | | | | |
| 11. Mübahisələrin Alternativ Həlli Üsullarının istifadəsi üçün siyasət mövcuddurmu? | | | | | |
| 12. Müəyyən mübahisələrin həlli üçün vasitəçiləri asanlıqla tapmaq mümkündürmü? | | | | | |
| **III.4. Tərəflərlə davranışı** | | | | | |
| 1. İddiaçı şəxsən məhkəmədə iştirak edirsə, hakimlər və digər heyət üzvləri tərəfləri tərəf kimi çıxış etdikləri mübahisələr haqqında əsas izahatlarla təmin etmək üçün yetərli vaxtı və təlimə malikdirlərmi? | | | | | |
| 2. Məhkəmənin qərəzsizliyi və ədalətliliyini qorumaq şərti ilə prosedurların iştirakçılarına müvafiq məsləhətlər verilirmi? | | | | | |
| 3. Prosedurların iştirakçılarına, eləcə də, ictimaiyyətə ləyaqətlərinin qoruyacaq şəkildə davranılırmı? | | | | | |
| 4. Hakimlərin məhkəməyə çağırılan şəxslərin prosedurlarda hüquqi dili başa düşmə ehtiyaclarını təmin etmək bacarığı varmı? | | | | | |
| 5. Hakimlər tərəflər üçün prosedurların qiymətini aşağdakılara əsasən nəzərə ala bilirmi:<br>o görüləcək tədbirləri (ekspert hesabatı, məhkəməyə ödəniş və s.) məhdudlaşdırmaqla?<br>o tərəflərin resurslarına birbaşa təsiri olan işləri prioritet olaraq müəyyən etməklə (vəzifədən azad edilmə, aliment və s.)? | | | | | |
| 6. Hakimlər dinləmədə iştirak edənlərdən onlara nə üçün üstünlük hüququnun təmin edilməli olduğunu və ya hər hansı xüsusi tələblərinin olub-olmadığını (məsələn, ayağa qalxa bilməyən insanlar) soruşurmu? | | | | | |

| Ədalət mühakiməsinin fəaliyyətinin əsas sütunları | S | R | C | J | T/E |
|---|---|---|---|---|---|
| 7. Hakimlər dinləmələri insanların spesifik vaxtlarda dindirilə biləcəyi şəkildə təşkil edirmi? | | | | | |
| 8. Tərəflərə xüsusilə, izahat xahiş etmək üçün müdaxilə etməyə icazə verilirmi? | | | | | |
| 9. İctimai şikayət proseduru varmı? | | | | | |
| **III.5. Qərarların təqdimatı** | | | | | |
| 1. Hakimin rəsmi bildirişi və qərarın səbəbləri anlaşıqlıdırmı? | | | | | |
| 2. Qərarın səbəbləri əhatəli və sistematikdirmi? | | | | | |
| 3. Qərarların səbəbləri onların ədalətliliyi və qanuniliyi barədə tərəflər və hüquq mütəxəssisləri üçün aydın bələdçilik nümayiş etdirirmi? | | | | | |
| 4. Məhkəmə qərarlarının təqdimatı üçün konkret qaydalar və standartlar varmı? | | | | | |
| 5. Məhkəmə qərarlarının hazırlanması zamanı tərəflərin, vəkillərin, aşağı və ali instansiya məhkəmələrinin gözləntiləri yetəri qədər nəzərə alınırmı? | | | | | |
| 6. "Toplu" işlər üçün "standart" qərarlar və qaydalar istifadə edilirmi? | | | | | |
| **III.6. Qanunilik və ictimai inam** | | | | | |
| 1. Vətəndaşlara ədliyyə sisteminin keyfiyyəti və fəaliyyəti barədə illik hesabat təqdim edilirmi? | | | | | |
| 2. Bu hesabat parlamentdə müzakirə edilirmi? | | | | | |
| 3. Ədliyyəyə ictimai inamın müntəzəm qiymətləndirməsi aparılırmı? | | | | | |
| 4. Məhkəmənin fəaliyyəti (məhkəmənin iş səmərəliliyi) və keyfiyyəti haqqında müntəzəm ictimai hesabat verilirmi? | | | | | |
| 5. Ədliyyənin fəaliyyətinin çətinlikləri haqqında araşdırmalar aparmaq üçün xüsusi təhqiqat komitələri yaradılıbmı? Bu komitələrin fəaliyyəti ictimaidirmi? | | | | | |
| 6. Məhkəmə istifadəçilərinin hüquqları və vəzifələrini göstərən nizamnamə mövcuddurmu? | | | | | |
| 7. Tərəflərin istənilən vaxt prosedurlarının hansı mərhələdə olduğu barədə məlumat almaq imkanları varmı?<br>o birbaşa (informasiyanın qəbulu və ya İnternet vasitəsilə)?<br>o dolayı hüquqi müşavirləri (məsələn, vəkil və ya hüquqi təmsilçi) vasitəsilə? | | | | | |
| 8. Ədliyyədə tətbiq edilən intizam tədbirləri və sanksiyalar sistemi haqqında məlumat geniş ictimaiyyət və məhkəmə istifadəçiləri üçün mövcuddurmu və rəqəmlər ictimaiyyətə açıqlanırmı? | | | | | |
| 9. Vətəndaşlar ədliyyə sisteminin prioritetlərinin müzakirəsində məsləhətçi rol (maliyyələşdirmə, müəyyən mübahisələrin prioritet hesab olunması və s.) oynayırmı? | | | | | |
| 10. Sosial rolu ədliyyə sistemi ilə əlaqədar olan (zərərçəkənlər, istehlakçılar və s.) assosiasiyalar ədalət mühakiməsinin fəaliyyətinin təkmilləşdirilməsində xüsusi rol oynamağa qadirdirmi? | | | | | |
| 11. Yerli səviyyədə məhkəmələrin fəaliyyəti və keyfiyyəti ilə bağlı müntəzəm fikir mübadiləsi (ictimai debatlar, assosiasiyalar ilə iclaslar, məktəb uşaqlarının qəbulu və s.) aparılırmı? | | | | | |
| 12. Məhkəmənin mətbuatla iş üzrə təlim keçmiş xüsusi əməkdaşı varmı? | | | | | |

| Ədalət mühakiməsinin fəaliyyətinin əsas sütunları | S | R | C | J | T/E |
|---|---|---|---|---|---|
| 13. Məhkəmə hakimləri və digər hüquq mütəxəssisləri arasında konsultasiyaların nəticəsi olan və davranış qaydalarını və ya hamı tərəfindən razılaşdırılmış təşkilati tədbirləri əks etdirən konsensus sənədləri dərc olunurmu? | | | | | |
| 14. Məhkəmələrdə vətəndaşlar üçün təşkil olunmuş açıq qapı günləri varmı? | | | | | |
| **III.7. Qiymətləndirmə** | | | | | |
| 1. Ədliyyəyə ictimai inamın (potensial) itkisini ölçmək üçün dəyərləndirmə/qiymətləndirmə sistemi varmı? | | | | | |
| 2. Məhkəmə siyasətlərində (mətbuat ilə əlaqələr, hakimlər və dövlət ittihamçıları tərəfindən informasiya mübadiləsinin idarə olunması) cəmiyyətin məhkəmələrə inamının itirilməsini riski nəzərə alınırmı? | | | | | |
| 3. Müvafiq istifadəçilər (istifadəçilərə iddiaçılar, vəkillər, dövlət ittihamçıları, sınaq müddəti və postpenitensiar xidməti, tərcüməçilər, Uşaqların Müdafiəsi Şurası, ekspertlər və s.) müəyyən edilibmi? | | | | | |
| 4. Məhkəmə istifadəçilərinin məmnuniyyəti müntəzəm olaraq qiymətləndirilirmi? | | | | | |
| 5. İstifadəçilərin məmnuniyyət sorğularının qiymətləndirmə nəticələri ictimaiyyətə açıqlanırmı? | | | | | |
| 6. Bu məsələ üzrə əldə olunan inkişaf bu cür qiymətləndirmələrin nəticələri əsasında yoxlanılırmı (istifadəçilərin cavablandırmalı olduğu suallar aşağıdakı mövzulara aid ola bilər: hakimin rəftarı və davranışı, məhkəmənin infrastrukturu və xidmətləri, məhkəmə prosesindən əvvəl gecikmə, hüquqi müəyyənlik prinsipi təəssüratı və qərarın oxunaqlılığı ola bilər)? Bunlar məhkəmənin fəaliyyətini təkmilləşdirmək üçün istifadə edilirmi? | | | | | |
| **IV. İNSAN RESURSLARI, ƏDLİYYƏ VƏ HEYƏTİN STATUSU** | | | | | |
| **IV.1. İnsan Resursları Siyasəti** | | | | | |
| 1. İşəgötürmə, seçim, təlim, qiymətləndirmə, karyera yüksəlişi və ədliyyə və məhkəmə heyətinin maaşı ilə əlaqədar uzun müddətli strategiya və siyasət mövcuddurmu? | | | | | |
| 2. İşəgötürmə, seçim, təlim, qiymətləndirmə, karyera yüksəlişi və ədliyyə və heyətin maaşı dəyişkənliyi ilə əlaqədar uzun müddətli strategiya və siyasət varmı? | | | | | |
| 3. Hakimlər və ittihamçılar üçün müstəqil milli təlim müəssisəsi (ədliyyə məktəbi) mövcuddurmu? | | | | | |
| 4. Məhkəmələr və hakimlər arasında biliyin paylaşılması ilə əlaqədar siyasət mövcuddurmu? | | | | | |
| 5. Hakimlərin və ittihamçıların əməkhaqqı ödənişi qanunla tənzimlənirmi? | | | | | |
| 6. Hakimlər və ittihamçılar üçün qiymətləndirmə sistemi mövcuddurmu? | | | | | |
| 7. Hakimlər və ittihamçılar onlara tətbiq edilən qiymətləndirmə meyarlarından xəbərdardırlarmı? | | | | | |

| Ədalət mühakiməsinin fəaliyyətinin əsas sütunları | S | R | C | J | T/E |
|---|---|---|---|---|---|
| 8. Aşağıdakı mövzular hakim və ittihamçıların qiymətləndirmə meyarlarına daxildirmi?<br>o hakimlərin və ittihamçıların şəxsi və peşəkar vicdanlılığı;<br>o media ilə iş zamanı müvafiq davranış;<br>o siyasi və həmkarlar ittifaqı fəaliyyətləri ilə əlaqədar müvafiq davranış;<br>o media və siyasət qarşısında müstəqillik;<br>o tərəflərlə davranış;<br>o peşəkar səriştəlilik. | | | | | |
| 9. Qiymətləndirmə meyarları hakimlər və ittihamçılar üçün kifayət qədər aydındırmı? | | | | | |
| 10. Hakim və ya ittihamçı vəzifəsi üçün namizədlərin bacarıqları ədliyyəyə daxil olarkən qiymətləndirilirmi? | | | | | |
| 11. Gələcək hakimlər və ittihamçıların fərdi etik davranışı ədliyyəyə daxil olmazdan əvvəl qiymətləndirilirmi? | | | | | |
| 12. Gələcək hakimləri və ittihamçıları seçmək üçün obyektiv meyarlar mövcuddurmu? | | | | | |
| 13. Namizədlər bu meyarlardan xəbərdardırmı? | | | | | |
| 14. Qeyri-hakim/ittihamçı heyəti üçün qiymətləndirmə sistemi mövcuddurmu? | | | | | |
| 15. Bu sistemdə tətbiq olunan meyarlar işçi heyətinə məlumdurmu? | | | | | |
| **IV.2 Ədliyyənin statusu və səlahiyyətləri** | | | | | |
| 1. Hakimlərin və ittihamçılarının statusu və vəzifəsi qanunvericilikdə müəyyən edilibmi? | | | | | |
| 2. Hakimlərin və ittihamçıların əsas səlahiyyətləri ümumi siyasət sənədlərində göstərilibmi və ya qanunvericiliklə müəyyən olunubmu? | | | | | |
| 3. Hakimlər və ittihamçılar ən yaxşı təcrübələri və davranış qaydalarını müəyyən etməyə təşviq edilirmi? | | | | | |
| 4. Hakimlərin müstəqil mövqeyinin qorunması qanunvericiliklə müəyyən edilibmi? | | | | | |
| 5. Ədliyyə Şurası varmı? Bu Şura ədliyyənin müstəqilliyinin gücləndirilməsində rol oynayırmı? | | | | | |
| **IV.3. Təlim və səriştəliliyin yüksəldilməsi** | | | | | |
| 1. Məhkəmə rəhbərliyi məhkəmədə şöbələr arasında əməkdaşlığı stimullaşdırırmı? | | | | | |
| 2. Məhkəmə rəhbərliyi hakimlərin, ittihamçıların və məhkəmə heyətinin peşəkar biliyi və bacarıqları ilə əlaqədar tələblərin qeydiyyatını aparırmı? | | | | | |
| 3. Məhkəmə rəhbərliyi bütün məhkəmə heyətinin üzvlərinin səriştəliliyi və münasibəti ilə bağlı siyasət hazırlayıbmı? | | | | | |
| 4. Əməkdaşlıq və vicdanlılıq mədəniyyətini gücləndirmək üçün siyasət mövcuddurmu? | | | | | |
| 5. Məhkəmə rəhbərliyi məhkəmənin bütün səviyyələrində ədliyyənin bütünlüyünün təmin edilməsi və stimullaşdırması üçün siyasət aparırmı? | | | | | |
| 6. Hakim köməkçilərinin səfərbərliyi ilə əlaqədar siyasət mövcuddurmu? | | | | | |
| 7. Məhkəmə rəhbərliyi hakimlərin ixtisaslaşması ilə əlaqədar siyasət ha zırlayıbmı? | | | | | |

| Ədalət mühakiməsinin fəaliyyətinin əsas sütunları | S | R | C | J | T/E |
|---|---|---|---|---|---|
| 8. Məhkəmə rəhbərliyi heyətin əsas səlahiyyət dairəsini müəyyən edibmi? | | | | | |
| 9. Təşkilati bacarıqlar və dinləmənin idarə edilməsi texnikaları ədliyyəyə daxil olarkən keçilən ilkin təlim kursunun bir hissəsidirmi? | | | | | |
| 10. Hakimlər və ittihamçılar ilkin və/və ya davamlı təlimə əməl edirmi? | | | | | |
| 11. İlkin və/və ya davamlı təlim üçün standart mövcuddurmu? | | | | | |
| 12. Gələcək hakimlərin və ittihamçıların fərdi etik davranışı ədliyyəyə daxil olmazdan əvvəl tədris edilirmi? | | | | | |
| 13. Davamlı təlim zamanı əxlaq normaları məsələləri əhatə olunurmu? | | | | | |
| 14. Konkret işlər üçün səciyyəvi əxlaq normaları – azyaşlıların işləri üzrə məhkəmələr kimi – xüsusi olaraq məşğul olunurmu? | | | | | |
| 15. Hakimlərin və ittihamçıların davranışı və onların münasibəti ilə əlaqədar səriştəliliyə lazımi qədər əhəmiyyət verilirmi? | | | | | |
| 16. Təşkilati bacarıqlar və dinləmələrin idarəedilməsi texnikaları davamlı təlimdə əhatə edilirmi? | | | | | |
| 17. Texnikaların hazırlanması ədliyyəyə daxil olmazdan əvvəl keçilən ilkin təlimin mövzusudurmu? | | | | | |
| 18. Texnikaların hazırlanması davamlı təlimə daxil edilibmi? | | | | | |
| 19. Hakimlərin və ittihamçıların mobilliyi yeni funksiya üçün zəruri biliyin əldə edilməsinə bağlıdırmı? | | | | | |
| 20. Spesifik funksiyalar – palata və ya məhkəmə sədrliyi və ya – xüsusi təlim proqramına bağlıdırmı? | | | | | |
| 21. Spesifik funksiyalar – azyaşlıların işi və ya kommersiya məsələləri kimi – xüsusi təlim proqramına bağlıdırmı? | | | | | |
| 22. Məhkəmə bütün hakimlərin iştirak etdiyi və inzibati məsələlərlə yanaşı, hüquqi məsələləri, xüsusilə hakimlərin özləri tərəfindən təklif edilmiş məsələləri müzakirə etdiyi iclaslar, keyfiyyətin təkmilləşdirilməsi konfransları və digər tədbirlər təşkil edirmi? | | | | | |
| **IV.4. Biliyin paylaşılması, keyfiyyət və Mübahisələrin Alternativ Həlli Üsulları** | | | | | |
| 1. Məhkəmə rəhbərliyi biliyin paylaşılması mədəniyyətini təşviq edirmi? | | | | | |
| 2. Hüquqi biliyin mənbələri mövcuddurmu və asanlıqla əldə edilə bilirmi? | | | | | |
| 3. Hakimlər və ittihamçılar həmkarlar arasında birgə qiymətləndirmə (həmkarlar arasında işlərin müzakirəsi) və ya nəzarət (işlərin daha ixtisaslı həmkar ilə müzakirəsi) həyata keçirirlərmi? | | | | | |
| 4. Həmkarlar arasında birgə qiymətləndirmə zamanı qapalı məhkəmənin səs yazısı məlumat mənbəyi kimi keçərlidirmi? | | | | | |
| 5. Hakimlər yüksək məhkəmələrin yurisprudensiyası ıəsasında öz yurisprudensiyasını işlədikləri məhkəmələri çərçivəsində müzakirə etmək üçün “keyfiyyət qrupları”-ında iştirak edirlərmi? | | | | | |
| 6. Hakimlər öz qərarları ilə bağlı müzakirə forumlarında iştirak edirlərmi:<br>o digər məhkəmələrdən həmkarları ilə?<br>o vəkillər kimi daimi iştirakçılarla?<br>o və ya digər üçüncü tərəflərlə? | | | | | |

| Ədalət mühakiməsinin fəaliyyətinin əsas sütunları | S | R | C | J | T/E |
|---|---|---|---|---|---|
| 7. Ləğv olumuş və ya qüvvədən düşmüş qərarların müzakirəsi üçün siyasət mövcuddurmu? | | | | | |
| 8. Aşağı instansiya məhkəmələri və apellyasiya məhkəmələri arasında vaxtaşırı konsultasiya keçirilirmi? | | | | | |
| 9. Hakimlərin və ittihamçıların özünü tədrisi üçün lazımi qədər imkan varmı? | | | | | |
| 10. Hakimlər tərəfindən verilən qərarların götür-qoy edilməsi üçün yetərli qədər imkan mövcuddurmu? | | | | | |
| 11. Hakimlərin qərəzsizliyi və vicdanlılığı məsələsinə lazımi diqqət yetirilirmi? (məsələn, mənəvi dilemma haqqında seminar və ya etik davranış normaları komitəsinin reallaşdırılması). | | | | | |
| 12. Hakimlərə ADR texnikaları (mediasiya kimi) öyrədilirmi? | | | | | |
| 13. Hakimlər, ittihamçılar və heyət üzvləri ilə illik şəxsi inkişaf müzakirələri (metodiki və planlaşdırılmış) keçirilirmi? Bu müzakirələr zamanı ortaya qoyulan hədəflərə nail olunurmu və sonrakı gedişat izlənirmi? | | | | | |
| **IV.5. İnsan Resursları siyasətinin qiymətləndirilməsi** | | | | | |
| 1. İR siyasətlərinə (məsələn, xəstəlik məzuniyyəti, araşdırma və ya təlimlərin səmərəliliyi, tələb olunan təlim səviyyəsinin nəzərə alınması və məhsuldarlıq ilə əlaqədar meyarlar) nəzarət üçün meyarlar mövcuddurmu və İR siyasəti müntəzəm olaraq qiymətləndirilirmi? | | | | | |
| 2. Hakim/ittihamçı və işçi heyətin məmnuniyyəti vaxtaşırı qiymətləndirilirmi (məsələn sorğular vasitəsilə)? | | | | | |
| 3. Bu qiymətləndirmələrin nəticələri dərc olunurmu? | | | | | |
| 4. İnsan resurslarının qiymətləndirilməsi araşdırmaları vasitəsilə nail olunmuş irəliləyişə (məsələn, iş yükü, qiymətləndirmə və iş səmərəliliyinin tanınması, təlim imkanları, karyera inkişafı və nəzarət qaydası ilə əlaqədar heyətin məmnuniyyəti) nəzarət edilir? | | | | | |
| 5. Təlimin sistematik qiymətləndirilməsi və ədliyyənin və heyətin səriştəliliyinin inkişaf etdirilməsi siyasətləri mövcuddurmu? | | | | | |
| **V. ƏDALƏT MÜHAKİMƏSİ VASİTƏLƏRİ** | | | | | |
| **V.1. Maliyyə** | | | | | |
| 1. Ədliyyə sisteminin adekvat maliyyələşməsini sığortalamaq üçün büdcə prosesi mövcuddurmu? | | | | | |
| 2. Ədliyyə üçün mövcud olan maliyyə resursları ədliyyənin müstəqilliyini qorumaq üçün yetərlidirmi? | | | | | |
| 3. Məhkəmələrin maliyyə ehtiyacları, məhkəmə binaları, məhkəmədə ofislər, texniki avadanlıqlar və məhkəmənin təhlükəsizliyi ilə əlaqədar obyektiv keyfiyyət standartları/normaları formalaşdırılıbmı? | | | | | |
| 4. Məhkəmənin səmərəliliyi üçün fəaliyyət və maliyyə standartları müəyyən olunubmu? | | | | | |
| 5. Büdcə maddələrinin (məsələn, heyətin xərcləri, maddi xərclər) bölüşdürülməsi üçün obyektiv siyasət mövcuddurmu? | | | | | |
| 6. Məhkəmənin keyfiyyət sistemi üçün ayrıca büdcə maddəsi mövcuddurmu? | | | | | |

| Ədalət mühakiməsinin fəaliyyətinin əsas sütunları | S | R | C | J | T/E |
|---|---|---|---|---|---|
| **V.2. İnformasiya sistemləri** | | | | | |
| 1. Məhkəmələrdə informasiya və kommunikasiya texnologiyalarının istifadəsi haqqında siyasət mövcuddurmu (e-ədliyyə, video konfrans, elektron məlumat mübadiləsi və s.)? | | | | | |
| 2. Məhkəmə informasiya sistemləri müntəzəm olaraq nəzərdən keçirilir və təkmilləşdirilirmi? | | | | | |
| 3. İnsan resursları-informasiya sistemlərinin inkişafı digər operativ məhkəmə sistemlərinin (texniki) xüsusiyyətləri ilə uyğunluq təşkil edirmi (məsələn, işin idarə edilməsi üzrə informasiya sistemləri, maliyyə informasiya sistemləri və s.)? | | | | | |
| 4. Məhkəmə idarəetməsi informasiya sistemində qeyd edilmiş məlumat məhkəmənin iş səmərəliliyinin ümumi mənzərəsini əks etdirirmi? | | | | | |
| 5. Məhkəmə idarəetməsi informasiya sistemində qeyd edilmiş məlumatların təhlili bütün məhkəmə heyəti (və ya səlahiyyətli heyət) tərəfindən həyata keçirilə bilərmi, yoxsa yalnız ixtisaslaşmış heyət (məsələn, İT mütəxəssisləri) bu məlumatlardan istifadə edə bilər? | | | | | |
| 6. Məlumatın emal edilməsinin məxfiliyi ilə bağlı qaydalar müəyyən edilibmi (məsələn: sistemə məlumatların kiminsə evindən daxil edilməsi qadağası)? | | | | | |
| 7. Sistemdə olan məlumatın təhlükəsizliyi sığortalanıbmı (sistemə xaker girişi risklərinə qarşı)? | | | | | |
| 8. Məhkəmənin iş səmərəliliyi və maliyyə vəsaitinin bölgüsünə nəzarət üçün rasional büdcə prosesi müəyyən edilibmi? | | | | | |
| **V.3. Maddi-texniki təminat və təhlükəsizlik** | | | | | |
| 1. Məhkəmələr üçün malların və xidmətlərin satınalması mexanizmi mövcuddurmu? | | | | | |
| 2. İşin kənar icraçılara həvalə edilməsi siyasəti mövcuddurmu? | | | | | |
| 3. Məhkəmə rəhbərliyi standart satınalma proseduru tətbiq edirmi? | | | | | |
| 4. Məhkəmə rəhbərliyi daxil olan bütün mallar və xidmətlər üçün standart nəzarət prosedurundan istifadə edirmi? | | | | | |
| 5. Məhkəmə rəhbərliyi tədarükçüləri dövri qaydada qiymətləndirirmi? | | | | | |
| 6. Məhkəmə rəhbərliyinin uzun müddətli ofis bölüşdürməsi planı var? | | | | | |
| 7. Məhkəmə rəhbərliyi məhkəmənin fiziki və İT təhlükəsizliyi ilə əlaqədar siyasət hazırlayıb? | | | | | |
| 8. Məhkəmə rəhbərliyi məhkəmənin bütün maraqlı tərəflərinin təhlükəsizliyi ilə əlaqədar siyasət hazırlayıbmı? | | | | | |
| 9. Məhkəmə rəhbərliyi iş şəraiti və (ofisdaxili) qəza xidmətləri ilə əlaqədar siyasət formalaşdırıbmı? | | | | | |
| 10. Məhkəmə binalarının təhlükəsizliyi vasitələri mövcuddurmu? | | | | | |
| 11. Dinləmələrdə tərəflərin təhlükəsizliyi üçün vasitələr mövcuddurmu? | | | | | |

| Ədalət mühakiməsinin fəaliyyətinin əsas sütunları | S | R | C | J | T/E |
|---|---|---|---|---|---|
| **V.4. Vasitələrin, məlumat sistemlərin, maddi-texniki təminatın və təhlükəsizliyin qiymətləndirilməsi** | | | | | |
| 1. İnformasiya sistemləri və dəstək fəaliyyətləri ilə əlaqəli maliyyə və digər risklərə nəzarət sistemi varmı? | | | | | |
| 2. Məlumatın, xüsusilə maliyyə məlumatının keyfiyyəti və bütövlüyünə zəmanət verilirmi? | | | | | |
| 3. Giriş, insanların və məlumatların təhlükəsizliyini ilə bağlı hadisələri özündə əks etdirən qeydiyyat mövcuddurmu? | | | | | |
| 4. İnformasiya sistemlərinin təhlükəsizliyinə zəmanət verilirmi? | | | | | |
| 5. Zərər riski və maddi zərər təmin olunurmu? | | | | | |
| 6. Saxtakarlıq və mənimsəmə riskinə nəzarət edilirmi? | | | | | |
| 7. Xərclərin qiymətlləndirilməsi hər il həyata keçirilirmi və həmin xərclərin təsiri mövcuddurmu? | | | | | |
| 8. Məhkəmə rəhbərliyi gözlənilən nəticələrə nail olunub-olunmadığını (nəticələrə məhsuldarlıq, keyfiyyət və heyət daxil ola bilər) hər il araşdırırmı? | | | | | |
| 9. Məhkəmə rəhbərliyi siyasətini uyğunlaşdırmaq və/və ya iş prosedurlara düzəliş üçün nəticələrdən istifadə edirmi? | | | | | |